# EYVAZOV QORXMAZ ABIŞ OĞLU



Qorxmaz Eyvazov 1 aprel 1967-ci ildə Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. 1974-cü ildə burada birinci sinifə getmiş, 1984-cü ildə onuncu sinfi bitirərək, Laçın rayonundakı 127 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1985-ci ildə ordu sıralarına çağırılmışdır. Ukraynada hərbi xidmətdə olarkən 6 aylıq serjantlıq kursunu bitirmişdir. O, xidmət müddətində Fəxri fərmanlarla yanaşı, birinci dərəcəli idmançı vəsiqəsi almış və döş nişanı ilə də təltif edilmişdir. Qorxmaz 1987-ci ildə əsgəri xidmətini başa vurub vətənə dönür. O, 1988-ci ildə Laçında yaradılmış partizan dəstəsinə qoşulur. 1992-ci il mart ayında Laçın Rayon Polis Şöbəsində işə qəbul edilir. Sıravi polis işçisi Q. Eyvazovun döyüş yolu öz doğma yurdundan Qazdərəsi, Suarası, Mazutlu kəndlərinə kimi uzanır. Qızartı dağı uğrunda gedən döyüşlər zamanı onun xüsusi fəallığı nəticəsində düşmənin bir tankı ələ keçirilir. 4 avqust 1992-ci ildə erməni quldurları Qızartı dağını ələ keçirmək üçün yenidən hücuma keçərkən o, qolundan güllə yarası alır, lakin, azacıq sağalan kimi yenidən döyüşlərə qatılır. Horadiz əməliyyatı zamanı göstərdiyi igidliyə görə onu rota komandiri təyin edirlər. 10 fevral 1994-cü ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində döyüş zamanı Qorxmaz düşmənin xeyli canlı qüvvəsini məhv edir. Lakin bu döyüşdə özü də həlak olur. Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə Qorxmaz Abış oğlu Eyvazova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Laçın rayonunun Güləbird kənd xəstəxanası qəhrəmanın adını daşıyır. (Hazırda işğal altındadır).